

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 48 (21.458)

12 mart 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın11-də İran İslam Respublikasının Sərhəd Qoşunlarının Komandanı Qasım Rzayinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavini – Sərhəd Xidmətinin rəhbəri Vladimir Kulişovu qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Latviya Respublikasının sabiq Prezidenti Valdis Zatlersi qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 10 mart tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaradılmasının 24-cü ildönümü ilə əlaqədar olaraq, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının hərbi qulluqçusu da vardır.

**Məmmədov Müşfiq Qəşəm oğlu – mayor**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir.

# Naxçıvanda Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemlərinin təqdimatı olub






Martın 11-də "Naxçıvan" Universitetində Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemlərinin təqdimatı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təqdimat mərasimində çıxış edərək demişdir: Azərbaycana rəhbərliyi dövründə ümummilli liderimiz Heydər Əliyev ölkəmizdə informasiya və kommunikasiya texnologiyalarının inkişafını daim diqqət mərkəzində saxlayırdı. Bu siyasətin davamı olaraq informasiya texnologiyalarının inkişafını prioritet sahə elan edən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq olunan dövlət proqramları, həyata keçirilən zəruri islahatlar nəticəsində Azərbaycanın ümumdünya elektron məkanına inteqrasiyası təmin edilmiş, elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılmışdır. Ölkə rəhbəri 2012-ci ildə "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə"ni təsdiq etmiş, 2015-ci ildə isə "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" Fərman imzalamışdır. Bununla da dövlət orqanlarında elektron sənəd dövriyyəsinin və vətəndaşların müraciətləri üzrə kargüzarlığın elektron formada aparılmasının hüquqi əsasları yaradılmışdır.

Ali Məclisin Sədri demişdir: İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı Naxçıvan Muxtar Respublikasında da diqqət mərkəzindədir. Ötən müddət ərzində muxtar respublikanın telekommunikasiya şəbəkəsi beynəlxalq Trans Asiya-Avropa fiber optik kabel magistralına qoşulmuş, Naxçıvanın tranzit telekommunikasiya imkanları genişlənmişdir. 2014-cü ildə alternativ fiber optik kabel magistralının inşasının başa çatdırılması muxtar respublikanın həm daxili, həm də xarici əlaqələrinin kəsintisiz həyata keçirilməsində, elektron hökumət, 4-cü nəsil xidmətlərin və digər layihələrin icrasında əhəmiyyətli rol oynamışdır. Bu gün istər Naxçıvan şəhərində, istərsə də ucqar dağ kəndində yaşayan sakinlər informasiya-kommunikasiya texnologiyalarının imkanlarından eyni səviyyədə istifadə edə bilir. Artıq Naxçıvan informasiya blokadasından çıxmış, genişzolaqlı və simsiz internetdən istifadə insanların gündəlik həyat tərzinə çevrilmişdir. Əldə olunmuş nailiyyətlər muxtar respublikada elektron təhsilin tətbiqi üçün də yeni imkanlar açmışdır. Görülmüş işlərin nəticəsi olaraq ali, orta ixtisas, peşə və ümumtəhsil məktəblərində elektron tədris təmin edilmiş, təhsil müəssisələrində 5 mindən artıq kompüter, 700-dən çox elektron lövhə quraşdırılmış, distant təhsil şəbəkəsi qurulmuşdur. Bundan başqa, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi məqsədilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi istifadəyə verilmişdir.

"Ölkə Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq elektron sənəd dövriyyəsi, eləcə də vətəndaşlardan daxil olan ərizə və müraciətlər üzrə elektron qeydiyyat sistemi yaradılmışdır. Qabaqcıl proqram təminatına əsaslanan bu sistem muxtar respublikada vətəndaş cəmiyyətinin və vətəndaşla dövlət orqanları arasında münasibətlərin inkişafına mühüm töhfədir", – deyən Ali Məclisin Sədri bu işin mühüm əhəmiyyəti olduğunu bildirmiş, sistemin yaradılmasında əməyi olanlara təşəkkür etmişdir.

Ali Məclisin Sədri demişdir: Qeyd olunanlar bir daha göstərir ki, muxtar respublikada informasiya texnologiyalarının inkişafı və onun təhlükəsizliyinin təmin edilməsi istiqamətində xeyli iş görülüb. Lakin təbii ki, bu, son hədd deyil. Qarşıdakı dövrdə bu sahədə iş daha da təkmilləşdirilməli, lokal şəbəkənin normal fəaliyyəti üçün aid qurumlar öz səlahiyyətləri daxilində fəaliyyətlərini artırmalıdırlar. Elektron informasiya sistemində yeni texnologiyaların tətbiqi əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsini şərtləndirir. Bu xüsusatlar nəzərə alınaraq insanlar yeni texnologiyaların imkanlarından istifadəyə təşviq olunmalıdırlar. Əhalinin informasiya-kommunikasiya texnologiyaları və informasiya cəmiyyəti barədə maarifləndirilməsi üçün müxtəlif kitabçaların, terminoloji lüğətlərin, elektron vəsaitlərin hazırlanması təmin edilməlidir.

Rabitə və Yeni Texnologiyalar Nazirliyi Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemlərinin təkmilləşdirilməsini, onun əhatə dairəsinin genişləndirilməsini davam etdirməli, aidiyyəti orqanlarla birlikdə sistemin təhlükəsizliyi üçün tədbirlər görməlidir. Mərkəzi və yerli icra hakimiyyəti orqanları vətəndaşların müraciətlərini və onların icrası ilə bağlı digər məlumatları vaxtında qeydiyyata almalıdırlar. Mərkəzi icra hakimiyyəti orqanları ilə onların yerli qurumları arasında da elektron sənəd dövriyyəsinin tətbiqi genişləndirilməlidir. Bu sistemlərin quruldüğu bütün orqanlarda informasiya təhlükəsizliyi məqsədilə ayrıca otaqlar olmalı, müvafiq avadanlıqlar qurulmalı, məsul şəxslər müəyyənləşdirilməlidir.

Qeyd olunmuşdur ki, yeni texnologiyaların səmərəli tətbiqi üçün mütəxəssis hazırlığına ciddi diqqət yetirilməlidir. Aid dövlət orqanları Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birlikdə kadrların hazırlıq səviyyəsinin artırılması üçün tədbirlər planı hazırlayıb həyata keçirməlidirlər. Ali və orta ixtisas təhsili müəssisələri tələbələrin informasiya-kommunikasiya vasitələri ilə iş vərdişlərini artırmaq məqsədilə praktiki kursların təşkilinə diqqəti artırmalıdırlar. Təhsil Nazirliyi elektron təhsil resurslarından səmərəli istifadəni təmin etməklə tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına nail olmalı, distant təhsilin genişləndirilməsi üçün müvafiq tədbirlər görməlidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sağlamlıq imkanları məhdud şəxslərin, əlilxüsus uşaqların distant təhsili, eləcə də audio və elektron kitabxanalardan istifadə imkanlarını genişləndirməlidir. İnformasiya-kommunikasiya texnologiyaları sahəsi daim yeniləşir. Buna uyğun olaraq dövlət orqanlarının və təhsil müəssisələrinin fəaliyyəti də təkmilləşməli, müasir dövrün tələblərinə cavab verməlidir.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov çıxış edərək demişdir ki, son illər muxtar respublikada 1300 kilometrdən artıq optik kabel xətləri çəkilmiş, mövcud 174 elektron avtomat stansiyadan 170-i optik arabağlantılarla təmin edilmişdir. Bundan başqa, Sədərək-Ordubad alternativ optik kabel magistralının tikintisi başa çatdırılmış, dövlət orqanlarının elektron xidmət göstərmələrinin təşkili məqsədilə 33 dövlət orqanı üçün optik telekommunikasiya şəbəkəsi, 8 mərkəzi icra hakimiyyəti orqanı ilə onların şəhər və rayon təşkilatları arasında isə lokal telekommunikasiya şəbəkələri qurulmuş, 76 dövlət təşkilatı və 12 idman federasiyası üçün internet səhifələri hazırlanmışdır. Həyata keçirilən tədbirlərin davamı olaraq ötən il muxtar respublikaya daxil olan internet kanalının sürəti artırılmış, Türkiyə Respublikası istiqamətindən ikinci fiber optik kabel xətti çəkilərək alternativ kabel magistralına qoşulmuş, 4-cü nəsil mobil operatorun və mobil internet provayderin yaradılmasına başlanmışdır. Hazırda muxtar respublikanın yaşayış məntəqələrinin 98 faizində genişzolaqlı, 83 faizində isə simsiz internet xidmətləri göstərilir, stasionar telefon abunəçilərinin 67 faizi yeni nəsil rabitə xidmətlərindən istifadə edirlər.

Rövşən Məmmədov muxtar respublikada informasiya texnologiyalarının inkişafına göstərdiyi diqqətə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, Naxçıvan Muxtar Respublikasında Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri haqqında məlumat vermişdir.

Qeyd olunmuşdur ki, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri üçün tələb olunan server və digər avadanlıqlar alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisində qurulmuş, hər iki sistem üçün proqram təminatı hazırlanmışdır. Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat Sistemi 2 terabaytlıq yaddaşa malikdir. Bu da daxil olan müraciətlərin və verilən cavabların uzun müddət arxivdə saxlanılmasına imkan yaradacaqdır. Muxtar respublikanın 76 təşkilatının internet saytında elektron müraciət bölməsi yenidən işlənmiş və sistemlə əlaqələndirilmişdir.

Ardı 2-ci səhifədə

Bu da vətəndaş tərəfindən elektron hökumət portalı üzərindən göndərilən müraciətlərin eyni vaxtda elektron qeydiyyat sisteminə də daxil olmasına imkan verir. Təşkilat tərəfindən vətəndaşın müraciətinə 15 gündən gec cavab verildikdə sistem əməliyyatçını məlumatlandırır. Əməliyyatçı məlumatları digər elektron ünvanlara göndərmək, çap etmək, müqayisələr aparmaq, istənilən tarixdə göndərilən müraciətlərə yenidən baxmaq imkanına malikdir. Hər iş gününün sonunda bazaya daxil olan müraciətlər və verilən cavablar avtomatik olaraq arxivə göndərilir.

İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminin əsas və ehtiyat serverlərinin hər birinin tutumu 3 terabaytdır. Sistem lokal şəbəkə daxilində fəaliyyət göstərir. Buna görə də bütün sənədlər və yazışmalar Elektron Sənəd Dövriyyəsi Sisteminin serverində tam təhlükəsiz şəraitdə saxlanılır. Əməliyyatçı ona verilmiş şifrə vasitəsilə sistemə daxil olur. Bu zaman 30 dəqiqə ərzində kompüterdə heç bir əməliyyat aparılmadıqda sistem həmin istifadəçini avtomatik olaraq kənarlaşdırır.

Ali Məclisin Sədri demişdir ki, muxtar respublikanın yaşayış məntəqələrində sürətli internetə çıxış imkanının olması Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat Sistemindən istifadəyə hərtərəfli şərait yaradır. Yeni sistem vətəndaşlarla dövlət qurumları arasında münasibətlərin sadələşdirilməsinə, vaxt itkisinə yol verilmədən daxil olan müraciətlərə baxılmasına və cavablandırılmasına imkan verir. İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminin yaradılması isə imkan verəcəkdir ki, mərkəzi və yerli icra hakimiyyəti orqanları arasında elektron sənəd dövriyyəsi daha operativ təşkil olunsun. Qeyd olunanlar əsas götürülərək Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi əhalinin Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat Sistemindən istifadə etməsi üçün maarifləndirmə və təbliğat işləri aparmalı, mərkəzi və yerli icra hakimiyyəti orqanları İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemindən istifadəyə diqqəti artırmalıdırlar. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemlərindən istifadəyə nəzarəti gücləndirməli, Rabitə və Yeni Texnologiyalar Nazirliyi hər iki sistemin təkmilləşdirilməsi sahəsində işləri davam etdirməlidir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Yeni proqram elektron ödənişlərin həcmini artıracaqdır

***Yeni texnologiyaların tətbiqi cəmiyyətin iqtisadi-mədəni inkişafına öz təsirini göstərən mühüm amillərdən biridir. İqtisadi həyatın mühüm hərəkətverici qüvvələrindən biri olan pul dövriyyəsi mexanizminin təkmilləşdirilməsinə yönəlmiş belə addımlar isə bu sahədə əsaslı dəyişikliklərə səbəb olmaqla iqtisadi və sosial həyatda bir sıra problemləri kökündən həll etməyə imkan verir. Elektron pul dövriyyəsi və qeyri-nağd ödənişlərə keçid bu baxımdan müasir dövrdə diqqət mərkəzindədir. Muxtar respublikamızda elektron ödəniş xidmətlərinin tətbiqinin kütləviləşdirilməsi üçün 2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız ödənişlərin həcminin artırılması üzrə Tədbirlər Planı" təsdiq edilmiş, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi aidiyyəti qurumlarla birlikdə nəzərdə tutulmuş tədbirlərin icrasını daim diqqət mərkəzində saxlamış, işlərin icrasını uğurla həyata keçirmişdir. Yaradılmış mövcud infrastrukturdan daha məhsuldar istifadə olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram" təsdiq edilmişdir. Yeni proqramın mahiyyəti, ondan gözlənilən nəticələr barədə oxucularımızı maraqlandıran suallarla Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədova müraciət etdik:***

***– Səbuhi müəllim, hazırda muxtar respublikamızda elektron ödəniş sahəsində mövcud vəziyyət necədir?***

–Müasir iqtisadi şəraitdə maliyyə infrastrukturunun əsas tərkib hissəsi olan elektron ödəniş sistemi maliyyə sabitliyinin və ümumi iqtisadi inkişafın təminatında mühüm əhəmiyyət kəsb edir. Qarşımıza qoyulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində görülmüş tədbirlər nəticəsində nağdsız ödənişlərin həcmində ilbəil artım müşahidə edilmişdir. 2016-cı ilin yanvar ayı ərzində muxtar respublika üzrə aparılmış nağdsız əməliyyat həcmi 2 milyon 517 min manat təşkil etmişdir ki, bu göstərici 2014-cü ilin yanvar ayı ərzində aparılmış 246 min manatlıq ödəniş həcmini 10 dəfədən çox üstələmişdir. Nağdsız ödəniş həcmi 1 mart 2016-cı il tarixə artaraq 2 milyon 657 min manata çatmışdır.

Ümumilikdə, 2014-2015-ci illərdə və 2016-cı ilin ilk iki ayı ərzində muxtar respublika üzrə nağdsız ödəniş dövriyyəsi 36 milyon 561 min manat təşkil etmişdir.

2014-cü il ərzində aparılmış nağdsız əməliyyatların 8 milyon 931 min manatı quraşdırılmış POS-terminallar vasitəsilə, 3 milyon 582 min manatı isə internet və digər ödəniş sistemləri vasitəsilə həyata keçirilmişdir. 2015-ci ildə aparılmış əməliyyatların 10 milyon 821 min manatı quraşdırılmış POS-terminalların, 8 milyon 53 min manatı isə internet və digər ödəniş vasitələrinin payına düşmüşdür. Təkcə 2016-cı ilin fevral ayında əldə olunan göstərici isə 2014-2015-ci illər ərzində əldə olunan orta aylıq göstəricidən (1 milyon 307 min) 2 dəfə yüksək olmuşdur.

***– Hazırda hansı sahələrdə qeyri-nağd ödənişlərin ödənilməsi mümkündür?***

– Dövlət qurumları tərəfindən göstərilən xidmətlər üzrə ödənişlərin həmin qurumlara birbaşa ödənilməsi yolu ilə bankdankənar nağd qaydada aparılmasının aradan qaldırılması və elektron formada həyata keçirilməsi istiqamətində müvafiq addımlar atılmışdır. Nəticədə, vergi və rüsumların, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumların, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və yerli şöbələrinə sosial sığorta haqlarının və gömrük rüsumlarının elektron ödəniş formasında aparılması üçün lazımi infrastruktur yaradılmışdır. Eyni zamanda dövlət orqanlarının inzibati xərclərinin də (inzibati, yanacaq, nümayəndəlik və sair) korporativ kartlar vasitəsilə ödənilməsi üçün real şərait formalaşdırılmışdır. Həmçinin elektron ödəniş xidmətlərinin kütləviləşdirilməsi üçün kommunal xidmət haqlarının internet üzərindən ödəniş kartları ilə ödənilməsi imkanı yaradılmışdır. Əhalinin kommunal xidmət haqları üzrə ödənişlərinin rahat şəkildə aparılması məqsədilə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətində, "Naxçıvanqaz" İstehsalat Birliyində, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində və "Naxçıvan Su-Kanalizasiya" Açıq Səhmdar Cəmiyyətində, ümumilikdə, 199 ədəd POS- terminal quraşdırılmışdır.

***– Yeni proqramın icrasından hansı nəticələr gözlənilir?***

– Proqramın icrası iki əsas istiqamətdə nəzərdə tutulur. İlkin istiqamətdə elektron ödəniş infrastrukturunun inkişaf etdirilməsi, yeni xidmətlərin tətbiqi və əhatə dairəsinin genişləndirilməsi, ikinci istiqamətdə isə əhalinin və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə təşviq edilməsi dayanır.

Yeni proqramın icrası muxtar respublika üzrə mövcud olan münbit infrastruktur mühitinin imkanlarından daha səmərəli istifadə edilməsini, daim yenilənən ödəniş avadanlıqlarının tətbiq edilməsini, elektron ödəniş xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi ilə əhaliyə göstərilən xidmətlərin rahatlığının və keyfiyyətinin yüksəldilməsini təmin edəcəkdir. Bütün bunlarla bərabər, əhalinin maarifləndirilməsinə yönəldilən tədbirlər də bu sahənin əhali tərəfindən daha tez bir zamanda qəbul edilməsinə xidmət göstərəcək. Eyni zamanda banklar və aidiyyəti dövlət qurumları tərəfindən təşviqedici layihələrin, həvəsləndirici tədbirlərin keçirilməsi də nağdsız ödənişlərin həcminin artmasına öz töhfəsini verəcəkdir.

***– Bu istiqamətdə banklarımız muxtar respublika əhalisinə hansı yenilikləri təqdim edəcəklər?***

– Proqramda elektron ödənişlərin muxtar respublikada həyata keçirilən digər layihələrlə uyğunlaşdırılması sahəsində də tədbirlər nəzərdə tutulmuşdur. Bildiyiniz kimi, 2015-ci ildən başlayaraq Naxçıvan şəhərində tətbiq olunmağa başlanan əvvəlcədən ödəniş prinsipli elektron sayğacların quraşdırılması ilə kommunal ödənişlərin onlayn ödənilməsi mümkün olmamışdır. Bu proqramda nəzərdə tutulan müvafiq tədbirlərin həyata keçirilməsi ilə bu sahədə çatışmazlıqların aradan qaldırılması da əsas sahələrdən biri olacaqdır. Eyni zamanda ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələrin ödənişlərinin "Hökumət Ödəniş Portalına" inteqrasiya edilməsi ilə istər ölkə daxilində fəaliyyət göstərən 914 bank və bank filialı şəbəkəsindən, istərsə də onlayn formada bu ödənişlərin həyata keçirilməsi mümkün olacaq. Bundan əlavə, muxtar respublikada dövlət orqanlarının əsas inzibati xərcləri sistemli təşkil edilməkdə, inzibati xərclər yalnız kart vasitəsilə nağdsız həyata keçirilir. Buna baxmayaraq, ay ərzində nəzərdə tutulmayan ani xərclərin də (ezamiyyə, dəftərxana, təsərrüfat və sair) məhz nağdsız həyata keçirilməsinin təmin olunması istiqamətində korporativ kartların rolu böyük olacaq və bu da, öz növbəsində, dövriyyədə olan nağd pul kütləsinin azaldılmasına müsbət təsirini göstərəcəkdir. Həmçinin muxtar respublika ərazisində istehsal olunan mal və məhsulların, milli dəyərləri əks etdirən əşyaların, əl işlərinin internet kataloqlarının hazırlanması və onlayn şəkildə nümayiş etdirilməsi, satışlarının həyata keçirilməsinin təmin olunması istiqamətində banklar tərəfindən lazımi işlərin görülməsi də nəzərdə tutulmuşdur.

Ümumilikdə, 2016-2018-ci illəri əhatə edən bu proqram Naxçıvan Muxtar Respublikasında yüksək ödəniş mədəniyyətinə malik cəmiyyətin formalaşdırılmasında, hesablaşmalarda nağdsız ödənişlərin payının inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılmasında, yaradılmış infrastruktur imkanlarından bütün iqtisadi subyektlərin və geniş əhali təbəqəsinin yararlanmasında böyük rola malik olacaqdır. Bu isə, öz növbəsində, müasir elektron ödəniş alətlərindən və bank texnologiyalarından istifadənin genişləndirilməsini təmin edəcək, elektron ticarətin inkişafını sürətləndirəcək və nağdsız dövriyyənin xüsusi çəkisini artırmaqla nağd pula tələbi azaldacaqdır.

***Müsahibə üçün sağ olun.***

**Əli CABBAROV**

***Muxtar respublikanın dəmir yolu təsərrüfatında daşımaların təhlükəsizliyi, infrastrukturun yeniləşdirilməsi diqqət mərkəzində saxlanılır.***

## Dəmiryolçular ötən ayı uğurla başa vurmuşlar

Bütün bunlar xidmətin səviyyəsinin yüksəlməsinə, dəmir yolu nəqliyyatından istifadə edənlərin sayının artmasına səbəb olur. Cari ilin fevral ayında muxtar respublika üzrə 11 min 836 sərnişin dəmir yolu nəqliyyatından istifadə etmişdir. Həmçinin bu dövrdə Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən 1134 ton müxtəlif təyinatlı yük muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına çatdırılmışdır.

Sərnişin və yük daşımalarının mütəmadi təşkili, hərəkətin təhlükəsizliyinin təmin olunması məqsədilə "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin müvafiq strukturları tərəfindən qatar və vaqonların, eləcə də elektrik şəbəkəsi və digər dəmir yolu qurğularının sazlığına nəzarət olunur. Fevral ayında Culfa lokomotiv və vaqon depolarında lokomotivlər 6 dəfə texniki baxışdan keçirilmiş, 1 elektrovoz, 1 teplovoz və 2 vaqon cari təmir edilmiş, 1 sərnişin vaqonunda isə istilik sisteminin yenilənməsi işi davam etdirilmişdir. Həmçinin İnfrastruktur İdarəsinin xidməti ərazisində baş və stansiya yollarına baxış keçirilmiş, yağış sularının maneəsiz ötürülməsi üçün süni tikililər, küvetlər və yol yataqları təmizlənmişdir. Bu dövr ərzində yolların cari təmiri də diqqət mərkəzində saxlanılmış, 205 kilometr baş yol, 31 kilometr stansiya yolları yoxlanılmış, 110 yararsız ağac şpal dəyişdirilmişdir. Qatarların stansiyalarda hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədilə rabitə və işarəvermə qurğularının sazlığı da nəzarətdə saxlanılmış, stansiyalarda, inzibati, texniki və yardımçı binalarda elektrik xətləri yoxlanılaraq nasazlıqlar aradan qaldırılmışdır.

Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən fevral ayında Ordubad dəmiryol sərnişin vağzalı və Yol Sahəsinin inzibati binalarında yenidənqurma, Ordubad stansiyasının İdarəetmə Mərkəzində isə Yol Sahəsinin yardımçı binalarında əsaslı təmir işləri davam etdirilmişdir.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

## "Fərda" Şirniyyat İstehsalı Müəssisəsinin fəaliyyəti genişləndirilib

***Daxili bazarı yüksəkkeyfiyyətli yerli məhsullarla təmin edən müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən "Fərda" Şirniyyat İstehsalı Müəssisəsidir.***

Sahibkar Zamiq Səfərov bizimlə söhbətində qeyd etdi ki, daxili bazarı keyfiyyətli şirniyyat məhsulları ilə təmin etmək məqsədilə 2008-ci ildə bina icarəyə götürüb fəaliyyətə başladıq. Açığını deyim ki, istehsal etdiyimiz məhsullara bu qədər tələbatın olacağını gözləmirdik. Uyğunlaşdırılmış binada fəaliyyət göstərən müəssisədə artan tələbatın ödənilməsi, yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi zərurəti yarandı. Digər sahibkarlar kimi, biz də dövlət qayğısından bəhrələndik. 2013-cü ilin mart ayında müəssisə üçün Naxçıvan şəhərinin Babək məhəlləsində 1000 kvadratmetr torpaq sahəsi ayrıldı. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət yeni bina inşa olundu. Binanın zirzəmisində xammal və hazır məhsulların saxlanılması üçün soyuducu anbar, ikinci mərtəbəsində şirniyyat istehsalı sahəsi, iaşə xidməti göstərilməsi üçün yeməkxana, digər yardımçı otaqlar, firma mağaza və kafe, üçüncü mərtəbəsində isə nanəli konfet, rahatlokum, dondurma istehsalı sahələri, inzibati heyət üçün ayrı-ayrı iş otaqları yerləşir.




Müxtəlif çeşiddə daha keyfiyyətli məhsullar istehsal etmək məqsədilə müasir texnoloji avadanlıqların alınması üçün biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunub və 2014-cü ilin mart ayında 100 min manat dövlət maliyyə dəstəyi göstərilib. Müəssisədə Türkiyə, İtaliya və İran İslam Respublikasının bu sahə üzrə qabaqcıl təcrübəyə malik "OMG", "Sevel", "Həmədan soba", "Buzkar" firmalarının istehsalı olan müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. 2016-cı ilin yanvar ayında istifadəyə verilən yeni binada istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib. İstehsal edilən məhsulların birbaşa satışını təşkil etmək üçün Naxçıvan şəhərinin Heydər Əliyev prospektində, Əliqulu Qəmküsar küçəsində, "Cahan" Ticarət Mərkəzində və Şərur şəhərində müəssisənin müasir avadanlıqlarla təchiz edilmiş firma mağazalarının fəaliyyəti təmin olunub. Eyni zamanda istehsal edilən məhsulların müəssisədə satışı üçün yeni firma mağaza və kafe istifadəyə verilib.

Daxili bazarın tələbatı öyrənilməklə istehlakçılara müxtəlif çeşidlərdə məhsullar təqdim edən müəssisədə gündəlik istehsal gücü 750 kiloqram Şərq, milli və Avropa şirniyyatları, 220 kiloqram rahatlokum, 80 kiloqram nanəli konfet və 560 kiloqram dondurma istehsalı sahələri fəaliyyət göstərir. Fəaliyyətə başladığı ilk illərdə 2-3 çeşiddə məhsul istehsal edilən müəssisədə hazırda 80 çeşiddə məhsul istehsal olunur. Daxili bazarın tələbatından artıq istehsal edilən məhsulların ölkəmizin paytaxtı Bakı şəhərində və digər regionlarda satışa çıxarılması planlaşdırılır.

Müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyəti genişləndirilən "Fərda" şirniyyat istehsalı müəssisəsi də daxili bazarı müxtəlif çeşidlərdə keyfiyyətli məhsullarla təmin etməklə yanaşı, ixrac potensialı yaradıb, əhalinin məşğulluğunun təmin olunmasında mühüm rol oynayıb. Hazırda burada 20 nəfər çalışır. Müəssisə tam gücü ilə işləyən zaman xidmət sahələri ilə birlikdə 60 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

**Kərəm HƏSƏNOV**



# Oxucu məktubları



*“Şərq qapısı” qəzetinə yazırlar*

## Fəxr etməyə layiq yurd-yuvamız, gözəl gün-güzəranımız vardır



***Sərbəst düşünməyi bacarandan, özümü duyandan, ətrafa nəzər salıb gördüklərimi qiymətləndirməyə gücüm çatandan Kürkəndin keçdiyi yol gözlərim önündədir. Sovetlər dönəmində bu kəndi bir neçə yaşayış məntəqəsi ilə birləşdirib kolxoz yaratmışdılar. Elə indi də Kürkəndi, Kürçülünü, Şəhriyarı bir-birindən ayırmaq çətindir, sevincimiz, kədərimiz, xeyirimiz-şərimiz birdir.***

Uzun illər kəndimizdə nə məktəb, nə də tibb müəssisəsi olub. Altmışıncı illərin sonuna qədər Kürkəndin uşaqları qonşu Şəhriyarda, yaxud bir az kənarda yerləşən rayon mərkəzində, Yengicə kəndindəki məktəblərdə oxuyublar. Həkim müayinəsindən keçmək, bir iynə vurdurmaq üçün Şərur şəhərinə getmək məcburiyyətində qalmışıq. Klub, yaxud mədəniyyət evi olmayıb, kitabxanamızın isə heç yeri məlum deyildi. Bu gün fəxrlə və sevinclə deyə bilərik ki, artıq kəndimizdə geniş və işıqlı sinif otaqları, fənn kabinələri, laboratoriyaları, açıq və örtülü idman qurğuları olan üçmərtəbəli məktəb, həkim ambulatoriyası vardır. İkimərtəbəli kənd mərkəzində inzibati ərazi dairəsi nümayəndəliyin, bələdiyyənin, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının, klubun, kitabxananın və digər yerli qurumların fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Xidmət mərkəzində isə üç mağaza, məişət xidməti yerləri vardır. Yollarımız əsaslı şəkildə təmir olunub, asfalt örtük salınıb. Kənd sakinləri özləri üçün ikimərtəbəli, yaraşıqlı evlər tikiblər, həyətlərin çoxunda minik avtomaşınları vardır. Torpaq mülkiyyətçiləri dövlətin göstərdiyi yardımlar hesabına öz təsərrüfatlarını günü-gündən inkişaf etdirirlər. Bütün bunlar əhalinin doğma torpağa bağlılığını, işə münasibətini daha da artırıb.

Bu yaxınlarda işdən qayıdarkən qarşımda bir avtomobil dayandı və sürücü sükan arxasından enib mənə yaxınlaşdı. Maşında daha üç nəfər var idi. Öyrəndim ki, Türkiyə vətəndaşlarıdır. Rayon mərkəzinə gedən yolu soruşdular. Cavab verdim ki, bu asfalt yolla gedin. Qısa söhbətimiz oldu. Sürücü dedi ki, mən 1992-ci ildə “Ümid körpüsü” açılandan sonra bir neçə il bu yolu gəlib-getmişəm, hətta Kürkənddə qonaq da olmuşam. Lakin işlə əlaqədar başqa xarici ölkədə olduğumdan çoxdandır bu tərəflərə keçmirəm və kəndiniz o qədər dəyişilib ki, tanıya bilmədim. Cavab verdim ki, bütün şəhər və kəndlərimizdə belə quruculuq tədbirləri görülür, hətta rayon mərkəzindən 30-40 kilometr aralı məsafədə yerləşən dağ kəndləri də günü-gündən yeniləşir, gözəlləşir, yeni sosial-mədəni obyektlər, yaraşıqlı yaşayış binaları inşa olunur. Elə bir kəndimiz yoxdur ki, ora fasiləsiz elektrik enerjisi və qaz verilməsin. Rayon mərkəzi ilə bütün yaşayış məntəqələrinin arasında avtobuslar işləyir, rabitə və poçt xidmətindən hamının istifadə etmək imkanı vardır.

Həmsöhbətim təəccübünü gizlədə bilmədi:

– Bəzi inkişaf etmiş ölkələrdə 50 ilə görülə bilməyən işləri siz 15-20 ilə tamamlayıbsınız.

Bəli, bu gün qapımızı döyən hər bir qonağın qarşısında üzümüz ağ, süfrələrimiz nemətlərlə zəngindir, işimiz-gücümüz, fəxr etməyə layiq yurd-yuvamız, gözəl gün-güzəranımız vardır. Ölkəmiz inkişaf etdikcə onun bütün bölgələri ilə yanaşı, muxtar respublikamız, eləcə də doğma Şərurumuz, onun bir guşəsi olan Kürkənd də müasirləşib, yeniləşib. Bütün bunlara dövlətimizin gündən-günə artan iqtisadi qüdrəti, bir də insan amilinə verilən dəyər sayəsində nail ola bilmişik.

**Nazim BABAYEV**
***Kürkənd sakini***

*Minnətdarlıq*

## Uğurlarımız daha da artacaq



Naxçıvan Muxtar Respublikası bu gün hərtərəfli inkişaf dövrünü yaşayır. Bu inkişafı idman sahəsində də görmək olar. Son illərdə idmanın müxtəlif sahələrinin inkişaf etdirilməsi, idman federasiyalarının yaradılması, müasir tələblərə cavab verən idman obyektlərinin tikilməsi muxtar respublikada idmançılara göstərilən qayğının ifadəsidir. Naxçıvan şəhərində dünyanın inkişaf etmiş şəhərlərində fəaliyyət göstərən şahmat mərkəzləri ilə bir sırada dayanan Şahmat Mərkəzi, muxtar respublikanın bütün rayon mərkəzlərində yeni şahmat məktəbləri tikilib. İdmançılarımız yaradılan şəraitdən səmərəli istifadə etməyə çalışaraq yeni-yeni uğurlara imza atırlar.

İki ildən artıqdır ki, muxtar respublikanın bütün ümumtəhsil məktəblərində şahmat dərsləri tədris olunur. Yeniyetmə və gənclərə şahmatın sirləri öyrədilir.

Naxçıvan Muxtar Respublikasında ölkə və dünya miqyaslı yarışların keçirilməsi də bir ənənə şəklini alıb. Bu, bütün şahmatsevərlər tərəfindən yüksək qiymətləndirilir. Artıq beş dəfə Naxçıvan şəhərində ümummilli liderimiz Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Naxçıvan Open” Beynəlxalq Şahmat Festivalı keçirilib. Yarışlarda dünyanın onlarla məşhur şahmatçıları, dünya çempionları iştirak ediblər. Bu yarışlarda naxçıvanlı şahmatçılar da mükafata layiq yerlər tutmağa nail olublar. FİDE prezidenti Kirsan İlyumjinov keçən il keçirilən yarışın bağlanış mərasimində iştirak edərək muxtar respublikada şahmatın inkişafına böyük diqqət göstərildiyindən razılığını bildirib.

Son illər ərzində şahmatçılarımızdan bir nəfər beynəlxalq qrossmeyster, bir beynəlxalq hakim, iki FİDE ustası, bir şahmatçımız məktəblilər arasında Avropa çempionu olub. Avropa çempionatının gümüş və bürünc medalları qazanılıb və onlarla şahmatçımız respublika, beynəlxalq yarışların mükafatçıları sırasında yer alıb.

Bu günlərdə isə Naxçıvan Muxtar Respublikasının Şahmat Federasiyası “2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı”nın Naxçıvan Muxtar Respublikasında uğurlu icrasına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif olunub.

Əldə edilən nailiyyətlərə yüksək qiymət verən, eyni zamanda biz şahmatçıları həmişə diqqət mərkəzində saxlayan Ali Məclisin Sədrinə bütün muxtar respublika şahmatçıları adından dərin minnətdarlığımızı bildirir, bundan sonra daha böyük uğurlara imza atacağımıza söz veririk.

**Emin HACIYEV**
***Naxçıvan Şahmat Mərkəzinin direktoru***

*Münasibət*

## Şəhərimizin təmizliyinə xələl gətirənlərə biganə qalmayaq

***Hörmətli redaksiya!*** *Sizə bu məktubu yazmağa məni dünən qarşılaşdığım bir hadisə məcbur etdi. Övladlarımın məktəbə, özümün isə işə gecikməməsi üçün hər gün səhər tezdən evdən çıxıram. Yəqin ki, oxucularınız arasında çox sayda valideyn var və onlar da mənimlə razılaşarlar ki, səhər-səhər iki uşağın əyin-başını qaydaya salıb yola çıxmaq nə qədər vaxta başa gəlir.*



Elə dünən də cidd-cəhdlə uşaqları geyindirib bayıra çıxmışdım ki, qonşuluqdakı binanın yuxarı mərtəbələrindən atılan çirkab su üst-başımızı əməlli-başlı çirkləndirdi. Boylanıb suyu aşağı atanı görmək istədim. Amma elə bil həmin adam qeybə çəkilmişdi. Nə qədər baxsam da, heç kimi görə bilmədim. Kor-peşman övladlarımla evə qayıdıb üst-başımızı dəyişməli olduq. Həmin gün uşaqlar dərsə, mən isə işə yubandım. Ancaq bir şeyi başa düşə bilmədim ki, ən müasir su-kanalizasiya sistemlərinin qurulduğu və bu sistemlərin işlək vəziyyətdə olmasına mütəmadi olaraq nəzarət edildiyi bir binada yaşayan həmin şəxsi aşağıya su atmağa nə vadar edir? Niyə belə insanlar başa düşmür ki, bu hərəkətləri ilə başqalarına zərər verirlər.

Mübaliğəsiz deyə bilərəm ki, bu gün Naxçıvan şəhəri ölkəmizin ən təmiz, səliqəli, abad şəhərləri sırasındadır. Yaşayış binaları biri-birindən gözəl, yaraşıqlıdır, park və xiyabanlarımız, istirahət məkanlarımız təmizdir. Təbii ki, bütün bunlar uzun illər bizim yaxşı şəraitdə yaşamağımız üçün çəkilən zəhmətin, diqqət və qayğının nəticəsində mümkün olub. Elə hər səhər özümüz də şahidi oluruq ki, şəhərin təmizliyinə və abadlığına birbaşa cavabdeh olan aidiyyəti qurumların işçiləri minbir zəhmətlə şəhərdə səliqə-sahman yaradırlar. Ancaq təəssüf ki, aramızda şəhərimizin təmizliyinə və abadlığına biganə yanaşanlar da var. Bu isə məni bir vətəndaş kimi narahat edir. Çünki yaşayışımız ancaq öz mənzilimiz ilə məhdudlaşmır. Mənzilimiz necə təmizdirsə, keçdiyimiz küçə və yollar, işlədiyimiz idarə, müəssisə, istirahət etdiyimiz guşələr də təmiz, ürəkaçan olmalıdır. Mədəni həyatın belə atributlarına əməl etmək hamımızın borcudur. Bir də ki, belə etinasız insanların ictimai qınağa çəkilməsi məncə, günün ən vacib tələblərindən biridir. Ona görə də oxuculardan xahişim budur ki, bu qəbildən insanlarla qarşılaşanda, onların binadan çirkab su atmağını görəndə, bağlarda skamyaların önünü zibillədiyinin, ağacların qol-budağını qırdığının şahidi olanda susmasınlar. Belə insanları qınaq obyektinə çevirsinlər. Bəlkə onda qarşılaşdığımız belə hadisələrin qarşısını ala bilərik.

**Məlahət NOVRUZOVA**
***Naxçıvan şəhər sakini***

*Razılıq*

## İşlə təmin olunmağıma sevinirəm

*Muxtar respublika sakinlərinin məşğulluğunun təmin edilməsi, sosial müdafiəsinin gücləndirilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılan məsələlərdən biridir. Son illərdə bu istiqamətdə həyata keçirilən tədbirlər hesabına yüzlərlə insan özünə iş yeri tapıb.*

Belə tədbirlər içərisində şəhər və rayonlarımızda keçirilən əmək yarmarkalarının böyük rolu var. Artıq ənənə şəklini alan yarmarkalarda vətəndaşlara onların yaşadıqları ərazilərdə fəaliyyət göstərən idarə, təşkilat, emal və istehsal müəssisələrində, sahibkarlıq subyektlərində boş iş yerləri barədə məlumatlar verilir, insanların münasib işlə təmin olunmalarına köməklik edilir. Hər bir iş yeri bir ailənin dolanışıq mənbəyidir. Buna görə də özünə iş tapan hər bir insanın sevincini duymaq çətin deyil.

Mən də iş tapmaq ümidi ilə yaşadığım Babək rayonunda keçirilən əmək yarmarkasına üz tutdum. Burada boş iş yerləri haqqında məlumat aldım. Mənə münasib olan işlə təmin edilməyimə həssaslıqla yanaşılaraq işə göndəriş verdilər. Hazırda “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətinin Babək rayon filialında işləyirəm. Sevinirəm ki, öz əməyimlə dövlətimizə xeyir verir, həm də ailəmizə maddi cəhətdən köməklik edirəm.

Bu tədbirin təşəbbüskarlarına və təşkilatçılarına dərin minnətdarlığımı bildirirəm.

**Nuranə SƏFƏROVA**
***“Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətinin Babək rayon filialının əməkdaşı***

## Yerli məhsullarımıza üstünlük verək



***Hörmətli redaksiya!*** Həm bir ziyalı, həm də bir daimi oxucunuz kimi bu məktubu yazmaqda məqsədim gündəlik həyatımızda tez-tez rastlaşdığımız bəzi hallara öz münasibətimi bildirməkdir. Düşünürəm ki, biz oxucuların qəzetiniz vasitəsilə ictimaiyyəti maraqlandıran bir sıra məsələlər ətrafında fikrini bölüşməsi vətəndaşlıq mövqeyi baxımından çox əhəmiyyətlidir.

Əvvəla onu bidirmək istərdim ki, hər gün market və bazarlarda alış-veriş edərkən rəf və piştaxtalardakı bolluğu görəndə ürəyim dağa dönür. İndi bazarlarımıza, az qala günboyu işləyən iri marketlərimizə daxil olanda həm müasir və səliqəli xidmət, həm də geniş çeşiddə hər cür ərzaq və qeyri-ərzaq məhsulları almaq mümkündür. Qiymətlər də münasibdir. Məsələn, yaxşı xatırlayırıq ki, 20-25 il əvvəl ilin bu vaxtında təzə əti, yumurtanı nəinki bu qiymətlərlə almaq, heç tapmaq da mümkün deyildi. İndi yerli istehsal hesabına bütün bu çətinliklər arxada qalıb. Ticarət obyektlərində yüzlərlə növdə, çeşiddə Naxçıvanın yerli istehsalı olan yüksəkkeyfiyyətli məhsullar almaq olar. Bir alıcı kimi yerli məhsullarımızın keyfiyyətindən də razıyıq. Buna görə də alış-veriş edərkən öz torpağımızda yetişdirilən, Naxçıvanda istehsal olunan məhsullar alıram. Qəzetinizin oxucularına, bütün naxçıvanlılara da çağırışım budur ki, gəlin yerli məhsullarımıza üstünlük verək. Unutmayaq ki, keyfiyyət sarıdan öz məhsullarımız həmişə daha çox seçilən, hər yerdə bəyənilən olubdur. Bu gün də belədir. Bəzi hallarda mənşəyi məlum olmayan idxal məhsullardan fərqli olaraq Naxçıvan məhsulları gözümüzün qabağında, ekoloji təmiz şəraitdə yetişdirilir, istehsal olunur. Bir də bilməliyik ki, yerli məhsullarımıza ödədiyimiz pul həm öz sahibkarımızın, onun işçisinin qazancı, həm də qənaət olunmuş valyutamızdır. Odur ki, gəlin alış-veriş edərkən bunları unutmayaq.

**Kamil HEYDƏROV**
***Naxçıvan şəhər sakini***

# Muxtar respublikanın mədəniyyət müəssisələri fəaliyyətini gücləndirmişdir

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrasını fevral ayında da diqqət mərkəzində saxlamışdır. Bu dövrdə Naxçıvan Dövlət Film Fondunda Gənclər Günü və M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Beynəlxalq Ana Dili Günü ilə əlaqədar tədbirlər keçirilmişdir. Xocalı faciəsinin 24-cü ildönümü münasibətilə muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən mədəniyyət evlərində və kitabxanalarda, ümumilikdə, 33 tədbir, muzeylərdə 45 açıq dərs keçilmiş, sərgilər təşkil edilmiş, Naxçıvan Dövlət Film Fondu tərəfindən Kəngərli rayonunda, Naxçıvan Tibb Kollecində, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında, Heydər Əliyev adına Hərbi Liseydə “Sözün bitdiyi zaman”, “Xocalıda son gecə” sənədli filmlərinin nümayişi olmuşdur.***

Fevral ayında Naxçıvan Dövlət Tarix Muzeyində, Naxçıvan Dövlət Xalça Muzeyində və Xatirə Muzeyində muxtar respublikanın 200-dən çox ümumtəhsil, orta ixtisas və peşə məktəbinin iştirakı ilə 3 distant dərs keçilmişdir. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” 2014-cü il 19 dekabr tarixli Sərəncamına uyğun olaraq ay ərzində muxtar respublikada fəaliyyət göstərən 40-dan çox nazirlik, komitə və idarələrin kollektivləri muzeylərdə olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamının icrası ilə bağlı ötən ay 5 tədbir, o cümlədən muzeylərdə 45 açıq dərs keçirilmişdir. Görkəmli şəxsiyyətlərin anım və yubiley günlərinin keçirilməsi də mədəniyyət müəssisələrinin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Ötən ay Cəlil Məmmədquluzadənin ev-muzeyində, Cəlilkənddəki Xatirə Muzeyində və Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində Cəlil Məmmədquluzadənin anadan olmasının 147-ci ildönümü, bir sıra kitabxanalarda isə Nəsirəddin Tusinin 815, Xalq şairi Nəriman Həsənzadənin 85, Abdulla Şaiqin 135, tarzən Bəhram Mansurovun 105 illiyi ilə əlaqədar tədbirlər keçirilmiş, kitab müzakirələri və sərgilər təşkil edilmişdir.

Hesabat dövründə kitabxanaların fəaliyyətinə də diqqət artırılmış, “Nağıl günləri” və “Mütaliə günləri”nin təşkili davam etdirilmişdir. Belə ki, A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası tərəfindən Naxçıvan şəhər 3, 5, 11 və 15 nömrəli uşaq bağçalarında müxtəlif nağıllar qiraət olunmuş, cizgi filmləri və səhnəciklər nümayiş etdirilmişdir. Ay ərzində muxtar respublikanın rayonlarındakı uşaq bağçalarında 29 “Nağıl günü” keçirilmişdir.

Ötən ay Naxçıvan Dövlət Filarmoniyasının kollektivi Ordubad və Culfa rayonlarında “Rast dəstgahı” adlı konsert proqramı ilə çıxış etmiş, Naxçıvan Dövlət Musiqili Dram Teatrında filarmoniyanın Kamera və Xalq Çalğı Alətləri orkestrlərinin konsertləri olmuşdur. Həmçinin teatrda tanınmış yazıçı-dramaturq Əli Əmirlinin “Varlı qadın” komediyasının ilk tamaşası olmuş, hər həftənin şənbə günləri Naxçıvan Dövlət Kukla Teatrında, həftədə 2 dəfə Naxçıvan Dövlət Musiqili Dram Teatrında müxtəlif tamaşalar oynanılmışdır. Xalq teatrlarının fəaliyyəti də diqqət mərkəzində saxlanılmış, Şərur Rayon Xalq Teatrı Ə.Haqverdiyevin “Ac həriflər” əsəri əsasında hazırladığı yeni tamaşanı, Babək Rayon Xalq Teatrı yazıçı-dramaturq Hüseynbala Mirələmovun “Xəcalət” əsəri, Ordubad Rayon Xalq Teatrı isə C.Məmmədquluzadənin “Kamança” pyesi əsasında hazırlanan tamaşaları teatrsevərlərə təqdim etmişlər. Ötən ay “Azərbaycan kinosu günü” adlı yeni layihə çərçivəsində Naxçıvan Dövlət Film Fondu tərəfindən Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində “Nabat” və “Cavad xan” filmləri nümayiş etdirilmişdir.

Muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində tədrisin səviyyəsinin yüksəldilməsi nəzarətdə saxlanılmış, Naxçıvan şəhərində, Şərur və Culfa rayonlarında zona müşavirələri keçirilmişdir. Bu dövrdə Culfa Şəhər Uşaq Musiqi Məktəbində tar, kamança və fortepiano, Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbində rəssamlıq ixtisasları üzrə ustad dərsləri keçilmiş, dərslərdə Naxçıvan şəhərindəki, Şərur və Culfa rayonlarındakı 5 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbindən 22 müəllim və 80 şagird iştirak etmişdir.

Muxtar respublikanın mövcud turizm potensialından düzgün istifadə və turistlər üçün məlumat bazasının yaradılması diqqət mərkəzində saxlanılır. Bu sahədə görülən işlərin davamı olaraq ay ərzində Naxçıvan Turizm İnformasiya Mərkəzinin 7 adda reklam-informasiya materialı – “Naxçıvan-Ordubad”, “Naxçıvan-Əshabi-Kəhf”, “Naxçıvan-Qarabağlar”, “Naxçıvan-Gəmiqaya”, “Naxçıvan-Əlincəqala” turist marşrutu, “Naxçıvan Turizm İnformasiya Mərkəzi”, “Naxçıvan Muxtar Respublikası” bukletləri nəşr etdirilmişdir.

Muzey bələdçilərinin biliklərinin artırılması və onlar arasında təcrübə mübadiləsinin aparılması vacib məsələdir. Bu məsələ əsas götürülərək Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyində 18 muzey işçisinin iştirakı ilə seminar-treninq keçirilmiş, tədbir iştirakçıları Şahtaxtinskilər Muzeyinin ekspozisiyasına baxmışlar. Həmçinin “Maddi-mədəniyyət nümunələrinin qorunmasında muzeylərin rolu” və “Müasir gənclik və mütaliə mədəniyyəti” adlı dəyirmi masalar təşkil olunmuş, muzey və kitabxanaçılıq işinin müasir tələblər səviyyəsində təşkili ilə bağlı qarşıda duran vəzifələr müzakirə olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

# Novruz zəngin ənənə və dəyərlər sistemidir

***Naxçıvan Dövlət Universitetində “Novruz zəngin ənənə və dəyərlər sistemidir” mövzusunda dəyirmi masa keçirilib.***

Universitetin müxtəlif fakültələrində təhsil alan fəal tələbələrin iştirakı ilə keçirilən dəyirmi masada ali məktəbin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək bildirib ki, Novruz bayramı Azərbaycan xalqının milli ruhunu və yaddaşını bütün zənginliyi ilə özündə yaşadır. Yazın gəlişini, təbiətin oyanışını bayram əhval-ruhiyyəsi ilə qarşılayan xalqımız Novruzla bağlı zəngin ənənə və dəyərlər sistemi formalaşdırıb. Tarixi yaddaşımızdan süzülüb gələn xalq mərasimləri bu bahar bayramında keçmişlə gələcəyi bir-birinə qovuşdurur. Bu səbəbdən Novruz bayramı həm də Azərbaycan xalqının öz tarixi-mədəni keçmişinə dərin ehtiramının ifadəsidir. Rektor bildirib ki, sovet imperiyası zamanı qadağan olunmuş bu bayram xalqın yaddaşında qorunub saxlanılıb, müstəqillik qazanıldıqdan sonra ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə dövlət səviyyəsində qeyd olunmağa başlanılıb.

Vurğulanıb ki, Novruz bayramı YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib, BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i “Beynəlxalq Novruz Günü” elan olunub.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Etnoqrafiya şöbəsinin müdiri, dosent Asəf Orucov, universitetin tərbiyə işləri üzrə prorektoru, dosent Şamxal Məmmədov, YAP Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri, dosent Kamal Camalov çıxış edərək Novruz bayramının mənşəyi və tarixindən, bu bayramın adət və ənənələrindən danışıblar.

Çıxışlarda bildirilib ki, Novruz təbiətdən gəlmiş bayramdır, eyni zamanda özünün məddi vəziyyətindən asılı olmayaraq, hər bir insan onu qeyd edir. Baharın gəlişi torpağın oyanışıdır.

Dəyirmi masada Novruz bayramının mənşəyi haqqında edilən təhlillərdən və izahlardan belə bir qənaətə gəlinib ki, onun yaranışı nə zərdüştlüklə, nə də İslam dini ilə əlaqəlidir.

Maraqlı diskussiya şəklində davam edən dəyirmi masada tələbələr mövzu ilə əlaqədar rəy və münasibət bildiriblər.

Tələbələri maraqlandıran suallar cavablandırıldıqdan sonra Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunmuş tələbələrə üzvlük vəsiqələri təqdim olunub.

**Mina QASIMOVA**

# Uşaqlara tamaşa göstərilib

***10 mart – Milli Teatr Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında sağlamlıq imkanları məhdud, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum, aztəminatlı ailənin üzvü olan uşaqlara tamaşa göstərilib.***



Tamaşa Zaur Vedilinin eyniadlı pyesi əsasında hazırlanıb. Azərbaycan Respublikasının Xalq artisti Yasəmən Ramazanovanın rejissoru olduğu “Çalıb-çağıran ağac” tamaşası uşaqlar tərəfindən sevinclə qarşılanıb.

Qeyd edək ki, muxtar respublikada əlamətdar günlərdə uşaqların, eləcə də xüsusi qayğıya ehtiyacı olan uşaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün tamaşaların göstərilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Novruz bayramı qeyd olunan zaman yangın təhlükəsizliyi qaydalarına əməl edilməlidir

***Hər il olduğu kimi, bu il də muxtar respublikamızın əhalisi Novruzu böyük sevinc və əhval-ruhiyyə ilə qarşılamağa hazırlaşır. Novruzun gəlişi ərəfəsində hər birimizin arzusudur ki, bayram şənlikləri ən ülvi duyğularla yaddaşlara həkk olunsun. Bayram şənliklərinin və tədbirlərinin keçirilməsi zamanı bəzən insanların ehtiyatsızlığı üzündən xoşagəlməz hadisələrlə də rastlaşırıq ki, bunlardan biri də yanğınlardır.***

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən muxtar respublika ərazisində Novruz bayramı günlərində yanğınların baş verməməsi üçün qabaqlayıcı tədbirlərin həyata keçirilməsi məqsədilə tədbirlər planı tərtib edilib. Həmin plana uyğun olaraq mədəniyyət, təhsil müəssisələrində, uşaq bağçalarında, mehmanxana və şadlıq evlərində, ticarət mərkəzlərində, insanların kütləvi olaraq bayram şənliyinə toplaşdığı yerlərdə yoxlama-nəzarət və maarifləndirmə tədbirləri aparılır.

Nazirlik bayram şənliklərinin keçirilməsi zamanı arzuolunmaz hadisələrlə üzləşməmək üçün yanğın təhlükəsizliyi qaydalarının tələblərinə əməl olunmasını tövsiyə edir.

Yadda saxlamaq lazımdır ki, tonqal yandırılan yerlərdə əvvəlcədən təhlükəsizlik tədbirləri həyata keçirmək vacibdir. Tonqal yandırılarkən onun yeri düzgün seçilməlidir. Tonqallar ətrafda olan yanar materiallardan, mühəndis-texniki qurğulardan, qaz xətlərindən, elektrik və rabitə xətləri çəkilmiş dirəklərdən, binalardan, evlərdən, yardımçı tikililərdən, ot-saman tayalarından, tezalışan maye və materiallar saxlanılan yerlərdən kənarda yandırılmalıdır.

Novruz şənliklərində yanar mayelərlə hopdurulmuş məşələrin, partladıcıların və fişənglərin azyaşlı uşaqlar tərəfindən havaya atılmasına yol vermək olmaz. Çünki məşələr evlərin dam örtüklərinin, həyətyanı sahələrə yığılmış yanar materialların, çəpərlərin və ot-saman tayaları yığılmış yerlərin üzərinə düşə və güclü yanğınların baş verməsinə səbəb ola bilər.

Yüksəkliklərdə, dağ və dağətəyi yerlərdə, eləcə də digər yaşayış sahələrində avtomobil şinlərinin üst-üstə yığılaraq yandırılması qəti qadağandır.



Novruz bayramının bir bəzəyi də xonça tutmaq, şam yandırmaqdır. Şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və digər yanar materiallara yapışdırmaq yanğın təhlükəsizliyi cəhətdən yolverilməzdir.

Bayram tədbirləri zamanı əhali ilə yanaşı, idarə, müəssisə və təşkilat rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına nəzarəti daha da gücləndirməli, qabaqlayıcı tədbirlər görməlidirlər.

***Bayram şənliklərinin keçirilməsi zamanı yanğın hadisələri ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin “112” qaynar xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin “101” xidmətinə məlumat verməyi unutmayın.***

**Azər QASIMOV**

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

# “Şahin” hərbi-idman oyunu keçirilib

Babək Rayon Gənclər və İdman İdarəsinin, Təhsil Şöbəsinin və Naxçıvan Muxtar Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Babək Rayon İdarəsinin təşkilatçılığı ilə “N” hərbi hissədə rayonun tam orta məktəblərinin komandaları arasında “Şahin” hərbi-idman oyununun rayon birinciliyi keçirilib. Birincilik başlamazdan əvvəl Babək Rayon Gənclər və İdman İdarəsinin rəisi Nazim Salmanlı “Şahin” hərbi-idman oyununun keçirilməsinin əhəmiyyətindən və yeniyetmələrin vətənpərvərlik tərbiyəsinə təsirindən danışıb. Sonra yarışa start verilib. Birincilikdə 15 məktəbin (hər məktəbdən 14 şagird olmaqla, cəmi 210 şagird) komandası mübarizə aparıb.

Hərbi-idman oyununun qalibi Cəhri kənd 2 nömrəli tam orta məktəbin komandası olub. İkinci və üçüncü yerlərə Nehrəm kənd 2 nömrəli və Cəhri kənd 1 nömrəli tam orta məktəblərin komandaları layiq görülüblər.

Qalib komandalara təşkilatçılar tərəfindən qiymətli hədiyyələr və diplomlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## İtmişdir

Şahbuz rayon sakini Rzayev Famil İsa oğlunun adına olan JN-178A inventar nömrəli, 10500048 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Əliyev Pərviz Oruc oğlunun adına olan 0200301302 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Sara Əzimova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 211